TURKPA

PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

**HÜQUQ MƏSƏLƏLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**

**5-ci İCLAS**

**ANKARA -2016**

# TÖVSİYƏ QƏRARI

***“Üzv ölkələr arasında kiber cinayətkarlıqla mübarizə,***

***əməkdaşlıq və hüquqi çərçivənin inkişaf etdirilməsi”***

**Parlament Assambleyası ;**

Öz fəaliyyətləri çərçivəsində hazırda nəzərəçarpan dərəcədə artan çətinlik kimi kiber təhlükələrlə bağlı potensial problemlərə qarşı mübarizəyə töhfə verilməsində məsuliyyətin bölünməsini *vurğulayaraq;*

İnformasiya sistemlərinin dayanmasının qarşısını almaq, kiber cinayətkarlığa qarşı internet məkanında təhlükəsizliyi və mübarizəni təmin etmək məqsədilə ölkələr, beynəlxalq təşkilatlar və kiber məkanda hər kəsin həyat sferası asılılığının daimi artımı səbəbilə yeni siyasətin hazırlanmasına başlandığını *diqqətə alaraq;*

Kiber məkandakı sərbəst informasiya axınının iqtisadiyyata və sosial inkişafa, təhsilə və demokratik idarəçiliyə töhfə verə biləcəyini *nəzərə alaraq;*

Kiber məkanda informasiya və kommunikasiya texnologiyaları şəbəkələrinin sürətli artımının cinayətin törədilməsində cinayətkarlar üçün yeni imkanlar yaratdığını *qeyd edərək;*

Kompüter şəbəkələri və elektron informasiyaların cinayət hadisələrinin törədilməsində istifadə olunması və belə cinayətlərlə bağlı sübutların bu şəbəkələr tərəfindən saxlanılması və ötürülməsi təhlükəsindən *narahat olaraq;*

Kiber cinayətkarlığa qarşı səmərəli mübarizədə artan cinayət işlərinə qarşı sürətli və dəqiq fəaliyyət göstərən beynəlxalq əməkdaşlığın genişləndirilməsini *güman edərək;*

Kiber cinayətkarlığa qarşı mübarizədə üzv ölkələr arasında koordinasiyanın və əməkdaşlığın zəruriliyi ehtiyacını *vurğulayaraq;*

Üzv ölkələr arasında kiber cinayətkarlıqla mübarizədə özəl sənaye sektorunda əməkdaşlığın və informasiya texnologiyalarının inkişafı sahəsində qanuni maraqlarının müdafiəsinin zəruriliyini *etiraf edərək;*

Mövcud milli və regional qanunvericilik ölçüləri ilə ölkələr arasındakı kiber təhlükəsizliyin və kiber cinayətin ümumi anlayışının zəruriliyini *vurğulayaraq;*

Kiber cinayətkarlıq üzrə müxtəlif ekspert qruplarının işini və digər beynəlxalq təşkilatlar çərçivəsində sonrakı görüş təşəbbüslərini *alqışlayaraq;*

Fundamental insan hüquqları üçün hüquq mühafizə və hörmət maraqları arasında düzgün balansın təmin edilməsinin lazımlığını *dərk edərək;*

Zəruri kiber cinayətkarlıq vasitələrini inkişaf etdirmiş beynəlxalq və regional təşkilatların fəaliyyətini *qeyd edərək;*

*Üzv Dövlətlərin Parlament və Hökumətlərinə* **tövsiyə edir**:

I. Kiber cinayətkarlığın qarşısının alınması və saxlanılması üçün milli və beynəlxalq hüquqi çərçivənin təkmilləşdirməsi məqsədilə parlamentlərarası regional və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsində milli parlamentlərin dəstəyini *səfərbər etmək*;

II. Digər dövlətlərin daxili işlərinə qarışmama, suverenlik prinsiplərinə hörmət də daxil olmaqla, beynəlxalq hüquq normalarına riayət etmək, eləcə də cinayət və terror xarakterli təhdidlərin qarşısının alınmasını *asanlaşdırmaq*;

III. Bütün növ məlumat və faktları hüquqi qorunmasını təmin etmək məqsədilə hüquqi bütövlüyü təmin edəcək müvafiq qanun və tənzimləmələrin də əhatə olunduğu və cari tələblərə cavab verən kiber təhlükəsizlik üzrə qanunvericiliyin *təkmilləşdirilməsi*;

IV. Lazım olduğu təqdirdə ikitərəfli və çoxtərəfli sazişlərin imzalanması və həyata keçirilməsi ilə kiber təhlükəsizliyin artırılmasında effektiv milli və beynəlxalq əməkdaşlıq üçün bütün mexanizmlərin səmərəli istifadəsini *təmin etmək*;

V. Kiber təhlükəsizlik sahəsində məhkəmə və hüquq mühafizə orqanları arasındakı birbaşa əməkdaşlığa *dəstək vermək*;

VI. Dərin milli maariflənmənin yaradılması məqsədilə mövcud təhlükəsizlik mexanizmlərinin istifadəsinin *artırılması*;

VII. Kiber hücumlara və hüquq pozuntularına qarşı mübarizədə hüquq mühafizə, xüsusi xidmət orqanları və məhkəmə sistemini təchiz etmək məqsədilə bu orqanlar arasında qarşılıqlı əlaqə və koordinasiyaya *köklənmək*;

VIII. O cümlədən, fərdlər və cəmiyyətlər üçün bu cür hərəkətlərin mənfi nəticələri barədə məlumatla təmin etmək məqsədilə hüquq-mühafizə orqanları və məhkəmə əməkdaşları üçün kiber cinayət üzrə təlim kurslarının təşkilinin *asanlaşdırılması*;

IX. Kiber terrorçuluq, onun həyata keçirilməsinə nəzarət, eləcə də digər qarşılıqlı əlaqəli kiber cinayətlərə qarşı mübarizə və qarşısının alınması ilə bağlı milli qanunvericilik üzrə məlumat mübadiləsinin *təkmilləşdirilməsi*;

X. Kiber təhlükəsizlik və kiber cinayətkarlığa qarşı mübarizə üzrə qanunvericilik fəaliyyətləri çərçivəsində peşəkar mütəxəssislərin dəstəyinin *təşviq edilməsi*;